# İbtidai siniflərdə davranış mədəniyyəti

**Sərfi Paşa qızı Mahmudova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** mahmudovaserfi@mail.ru

**Rəyçilər:** p.ü.f.d. L.A. Məmmədli,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** davranış mədəniyyəti, davranış qaydaları, qayda, şagird, mədəniyyət, sinif, ailə, müəllim, fəaliyyət, ibtidai sinif

**Ключевые слова:** поведенческая культура, правила поведения, правило, ученица, культура, класс, семья, учитель, действие, начальная школа

**Key words:** behavioral culture, rules of conduct, rule, pupil, classroom, culture, family, teacher, activity, primary school

İnsanlar arasında müəyyən qanunlar, davranış normalarının mövcudluğuna ehtiyac duyulmuşdur. Çünki insanlar arasında münasibətləri tənzimləyən normalar olmasa, özbaşınalıq və xaos hökm sürər. Ona görə də, hər bir dövrə uyğun cəmiyyətdə davranış qaydaları müəyyən edilir.

"Davranış qaydaları" şagirdlərə öyrədilərkən onların psixologiyası nəzərə alınmaqla müşahidə və fəallığın dialektiv vəhdət təşkil etməsinə nail olmalıdır. Çünki şagirdin gələcəkdə cəmiyyətin fəal üzvi olması və qanunlara əməl etməsi üçün elə məktəb dövründə sadəlik – mürəkkəblə fərdidən ümumiliyə doğru inkişaf etdirilməlidir.

Məktəb kiçik cəmiyyətdir. Sinif isə ondan bir qədər kiçikdir. Siniflər məktəbi əmələ gətirir. Bir anlığa təsəvvür edək ki, təxminən 600 şagirdin təhsil aldığı məktəbdə heç bir davranış qaydası yoxdur. O zaman hansı mənzərə ilə qarşılaşarıq? Əlbəttə ki, özbaşınalıq yaranar. Buna görə də sinif və məktəb üçün davranış mədəniyyəti, davranış qaydaları tərtib olunmuşdur.

Məlumdur ki 1-4-cü sinif şagirdləri hələ çox kiçikdirlər. Onlardan çox şey tələb etmək mümkün deyildir. 1-ci sinfə yenicə qəbul olunmuş uşaq məktəblə onun xüsusiyyətləri ilə və yoldaşları ilə tanış olur. Onlar çox vaxt darıxır evə getməyə tələsirlər. Getdikcə məktəbə alışan şagirdlər davranış mədəniyyətinə yiyələnirlər. Məktəbəqədər müəssisədə olmuş şagirdlər davranış qaydalarına yiyələnmiş olurlar. Onlar məktəbə tez adaptasiya olur və məktəbin davranış mədəniyyətinə tez yiyələnirlər. Unutmaq olmaz ki, "davranış qaydaları"nda şagirdlərin vəzifələri xatırladılır.

Hər bir ailənin davranış mədəniyyəti olduğu kimi məktəbində davranış mədəniyyəti vardır və ona əmək etmək vacibdir. İbtidai sinif şagirdlərinin davranış mədəniyyətinə və qaydalarına yiyələnmək və gələcəkdə də qaydalara hörmət etmək vərdişlərinə yiyələnmiş olurlar. Bir sözlə, məktəb və sinif şagird davranış qaydaları ən sadə cəmiyyət qanunlarıdır və onlara əməl etməklə hər bir şəxs özünün yetkin şəxsiyyət kimi formalaşmasına zəmin yaradır.

Mədəni davranış və etika anlayışı uzun əsrlər boyu mövcuddur və bizim dövrümüzdə də aktuallığını itirməmişdir. Bu anlayış cəmiyyətdəki davranış qaydalarını, insanların əxlaqa əsaslanan davranışlarını və ünsiyyət formalarını, həmçinin insanın daxili və xarici mədəniyyətini özündə birləşdirir. Davranış normaları, bir insanın cəmiyyətdəki hərəkətlərinin düzgünlüyünü və ya yanlışlığını təyin edən amildir. Hər şeydən əvvəl mədəni davranışın əsas amili yaxşı yetişdirmədir, yəni, bir insanın davranış normalarına riayət etməyə hazır olması, başqa-

larına münasibətdə xeyirxahlığı və nəzakətli olmağı ailədə başlayıb məktəbəqədər müəssisədə davam etdirilir. Daha sonra məktəbdə davam etdirilir. Etika və davranış mədəniyyəti cəmiyyətdə qəbul edilmiş bir növ standart, qaydalar sistemidir.

Davranış mədəniyyətinin əsas qaydaları və normaları insanda uşaqlıqdan tərbiyə olunur. Davranış və fəaliyyətlə əlaqədar olan mənəvi keyfiyyətlərin ilkin qavranmasına xidmət edən üsullar vardır. Bu üsullara aid ola bilər: - göstəriş, məsləhət, nümunə.

**Göstəriş üsulu:** Mənəvi keyfiyyətlərin ilkin qavramasına xidmət edən üsul kimi, göstəriş bütün yaş dövrlərində tətbiq edilir. Aydındır ki, bu zaman tərbiyə olunanların yaş xüsusiyyətləri nəzərə alınır.

**Məsləhət üsulu:** Tərbiyə işində məsləhət üsulundan geniş istifadə edilir. Göstəriş üsulu tərbiyə olunanların diqqətini ailədə, cəmiyyətdə bəyənilən mənəvi dəyərlərə birbaşa yönəldir.

**Nümunə üsulu:** Mənəvi keyfiyyətin tərbiyə olunanlar tərəfindən duyulmasına, qavranmasına xidmət edən üsullardan biridə nümunədir. Nümunəvi hərəkəti, davranışı, işi, yazını, tələffüzü və s. cəhətləri görən şəxs (uşaq, şagird, tələbə) daxilən düşünməli olur; o cür hərəkət etməyi, işləməyi, yazmağı, ifadə etməyi arzulayır.

Hər bir şagird mədəni ünsiyyət və davranış qaydalarını bilməli və bu qaydalara riayət etməlidir. Bəs bu hansı qaydalardır? Ümumi davranış qaydaları:

• Şagird dərsin başlanmasına 15-20 dəqiqə qalmış təmiz və səliqəli vahid məktəbli formasında məktəbə gəlməlidir. O, üst geyimini qarderoba təhvil verib, qarşıdan gələn dərs üçün dərs vəsaitlərini hazırlamalı və öz iş yerini tutmalıdır;

• Dərs zamanı müəllimlərin icazəsi olmadan məktəbi və məktəb ərazisini tərk etməməlidir. Dərsdə iştirak etmədiyi halda sinif rəhbərinə tibbi arayış və ya valideynləri (onları əvəz edən şəxs) tərəfindən yazılmış izahat təqdim etməlidir. Üzrlü səbəb olmadan dərs buraxmamalıdır;

• Şagird özündən böyüklərə hörmət, kiçiklərə qayğı ilə yanaşmalıdır;

• Məktəbdə və məktəbdən kənarda özünü mədəni və layiqli aparmalıdır. Dərs zamanı davranış:

• Müəllim sinfə daxil olanda şagirdlər salamlaşmaq üçün ayağa qalxır və müəllim onlarla salamlaşıb oturmağa icazə verdikdən sonra otururlar. Eyni qayda ilə şagirdlər dərs zamanı sinfə daxil olan digər böyükləri salamlayırlar;

• Hər bir müəllim dərs zamanı öz fənninə uyğun «Təhsil haqqında» qanuna və məktəbdaxili qaydalara əsasən davranış şərtlərini müəyyən edir;

• Dərs zamanı səs salmaq, dərsə aid olmayan kənar işlərlə məşğul olub dərsdən yayınmaq və dostlarını bu işə cəlb etmək olmaz;

• Əgər dərs zamanı şagird sinifdən çıxmaq istəyirsə, bunu müəllimin icazəsi olmadan edə bilməz;

• Əgər şagird müəllimə sual vermək və ya müəllimin sualına cavab vermək istəyirsə, əlini qaldırmalıdır;

• Dərslər kabinet sistemində keçirildiyi üçün kabinetdə hər şagird üçün bir yer müəyyən edilmişdir. Hər bir şagird öz iş yerinin təmizlik və səliqəsinin qorunmasına cavabdeh olmalıdır;

• Şagird dərs zamanı müəllimin tələblərini yerinə yetirməyə çalışmalıdır;

Bütün bunlar davranış mədəniyyətinin əsas qaydaları və normaları olmaqla, insanda uşaqlıqdan tərbiyə olunmalıdır. Çünki bu kimi xarakterik cəhətlər ilk növbədə mənəvi keyfiyyətlərin ilkin qavranmasına xidmət edən üsullar hesab olunur.

**Məqalənin aktuallığı.** İnsanlar arasında münasibətlərin tənzimlənməsində müəyyən qanunlar, davranış normaları mühüm rol oynayır. Çünki cəmiyyətdə bu kimi münasibətləri tənzimləyən normalar olmasa, özbaşınalıq hökm sürər. Ona görə də hər bir dövrə və şəraitə uy-

ğun olaraq cəmiyyətdə davranış qaydaları müəyyən edilir. Təbii ki, bizlərin hər biri də bu davranış qaydalarını bilməklə onlara əməl etməyə borcluyuq. Eyni zamanda, bu normaları orta məktəblərdə aşağı siniflərdən başlayaraq şagirdlərə aşılamaq hər bir müəllimin borcudur. Məqalənin də aktuallığı da onun məhz bu kimi vacib məsələyə həsr olunması ilə bağlıdır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə cəmiyyətdə hər birimiz üçün zəruri hesab olunan davranış qaydaları və normaları şərh olunmaqla, eyni zamanda onlarla əlaqədar olan mənəvi keyfiyyətlərin ilkin qavranmasına xidmət edən üsullar sadalanmış, ümumi davranış göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Kazımov N. İbtidai təhsil pedaqogikası. Bakı: Çaşıoğlu, 2011.
2. Kazımov N. Məktəb pedaqogikası. Bakı: Çıraq, 2011.

**С.П. Махмудова**

## Поведенческая культура в начальных классах

## Резюме

Определенные законы и нормы поведения играют важную роль в регулировании человеческих отношений. Потому что, если в обществе нет норм, регулирующих такие отношения, преобладает произвол. Поэтому правила поведения в обществе определяются по каждому периоду и ситуации. Конечно, каждый из нас обязан знать эти правила поведения и соблюдать их. В то же время обязанность каждого учителя - привить эти нормы учащимся средних школ, начиная с младших классов.

В статье также разъясняются правила и нормы поведения, которые необходимы каждому из нас в обществе, а также перечислены методы, служащие начальному восприятию связанных с ними моральных качеств, и показано общее поведение.

**S.P. Mahmudova**

## Behavioral culture in primary school

## Summary

Certain laws and norms of behavior play an important role in regulating human relations. Because if there are no norms regulating such relations in the society, arbitrariness prevails. Therefore, the rules of behavior in society are determined according to each period and situation. Of course, each of us is obliged to know these rules of conduct and follow them. At the same time, it is the duty of every teacher to inculcate these norms in students in secondary schools, starting from the lower grades.

The article also explains the rules and norms of behavior that are necessary for each of us in society, as well as lists the methods that serve the initial perception of the moral qualities associated with them, and shows the general behavior.

**Redaksiyaya daxil olub:** 29.09.2021